

*Qloballaşan dünyada yüksək sürətlə gedən informasiyalaşma prosesi demək olar ki, bütün ölkələri əhatə etməkdədir. Bu mənada, 44 günlük Vətən müharibəsindən sonra və son dövrlərdə regionda baş verən digər hadisələr fonunda Azərbaycan özünün geostrateji mövqeyi, regiondakı nüfuzu və beynəlxalq təşkilatlardakı çəkisi sayəsində xarici aktorların daha çox maraq dairəsindədir: "Bu gün müharibə bitib. Azərbaycan Qarabağda sülh əməlləri həyata keçirdiyi halda, təəssüflər olsun ki, yenə də ölkəmizə qarşı informasiya müharibəsi davam etməkdədir". Bu fikirləri Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türk Dövlətləri Təşkilatının (TDT) media və informasiya üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin İstanbulda keçirilən 4-cü toplantısında deyib. Qeyd edib ki, dünya mediasına baxdıqda erməni lobbi təşkilatları tərəfindən yenə də Azərbaycana qarşı qarayaxma kampaniyalarının davam etdiyini görmək mümkündür: "Bu, bir daha onu göstərir ki, bu kimi çirkin kampaniyalara qarşı birgə səylərimizi artırmalıyıq".*

# Türk dünyasından gələcəyə ortaq baxış

13-15 may tarixlərində İstanbulda keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) media və informasiya üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin 4-cü toplantısında TDT-yə üzv dövlətlər - Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, həmçinin müşahidəçi üzv Macarıstan və Türkmənistanın rəsmiləri iştirak ediblər. Tədbirə rəsmi nümayəndə heyətləri ilə yanaşı, media və kommunikasiya qurumlarının rəhbərləri, ekspertlər, sənətçilər, sosial media fenomenləri, alimlər və iştirakçı ölkələrin müxtəlif təhsil müəssisələrinin kommunikasiya fakültələrinin tələbələri qatılmışdılar. Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin evsahibliyi etdiyi tədbirdə ölkəmiz Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunurdu.

Onu qeyd etmək lazımdır ki, türk dövlətləri 30 ilə yaxındır ki, müxtəlif sahələr üzrə birgə fəaliyyət göstərir. Lakin media sahəsində əməkdaşlıq son 10 ildə aktuallaşıb. 2012-ci ildə Ankarada, sonrakı illərdə Azərbaycanda, Qazaxıstanda Türk ölkələri Media Forumları keçirilmiş, həmin ölkələri təmsil edən icra qurumu da yaradılmışdı. Bu baxımdan, məsələnin yenidən gündəmə gətirilməsinə zərurət yaranıb. Əvvəllər format olaraq Azərbaycan və Türkiyə medialarının əməkdaşlıq platforması nəzərdə tutulurdu. İndi isə bu format genişləndirilərək türk ölkələrinin hamısını əhatə edir. Hazırda ölkələrin müvafiq dövlət qurumları ilə yanaşı, ictimai sektor, media camiəsi də bu prosesə maraq göstərir ki, bu da təqdirəlayiq haldır. İnformasiya savaşının hədsiz aktuallaşdığı hazırkı dövrdə qarşılıqlı media fəaliyyəti olduqca vacibdir. Həyatın bütün sahələrində olduğu kimi, media sahəsində də dərin işbirliyi və interqasiya olunmaq günümüzün tələbidir. Bu müstəvidə sıraların genişlənməsi hər bir dövlətin maraqlarına cavab verəcək. Bu məsələdə sadəcə, bir mühüm məqam var. Ortaq xəbər siyasəti həyata keçirərkən ölkələr yalnız öz maraqlarını və problemlərini qabartmamalıdır. Bu gün media dəstəyinə ehtiyacı olan türk toplumları var və onların marağı baxımından media sərbəst olmalı, inzibati yönləndirmədən uzaq durmalıdır. Media sahəsində əməkdaşlığın iki ölkə çərçivəsindən çıxarılaraq daha geniş miqyası əhatə etməsi olduqca mühüm addımdır. Qeyd etmək lazımdır ki, Azərbaycanın qazandığı Zəfər türk dünyasında bir canlanma yaradıb. Hətta Orta Asiyanın Türk dövlətləri belə interqasiyaya əvvəlki dövrlərdən daha çox maraq göstərirlər. Bu maraqların media müstəvisində də birləşdirilməsi türk dünyasının xeyrinə olacaq.

Toplantıda Prezidentin köməkçisi qeyd edib ki, Qarabağ və Zəngəzur türk-islam mədəniyyətinin mərkəzlərindən biridir: "Oradakı dağıntıları da siz ötən il öz gözlərinizlə gördünüz. Biz Türk Dövlətləri Təşkilatı olaraq dünyaya əməkdaşlığı, xoş niyyətimizi təqdim edirik. Məqsədimiz də bundan ibarətdir". Azərbaycan Prezidentinin köməkçisi ötən il keçirilən media forumunu xatırladaraq, onun ölkələrimiz arasında media sahəsi üzrə təkcə rəhbər şəxslərin görüşü deyil, eyni zamanda, qurumlar arasında əməkdaşlıq baxımından da səmərəli olduğunu bildirib. Azərbaycanla türk dövlətləri arasındakı münasibətlərin inkişafı, ortaq dil, mədəniyyət, tarix və digər dəyərlər üzərindən keçməklə bütün prioritet istiqamətlər üzrə əlaqələrin genişləndirilməsinə imkan yaradır. Türk dünyasının böyük oğlu İsmayıl bəy Qaspıralının "dildə, düşüncədə və işdə birlik" şüarı bu gün Azərbaycan və Türkiyənin təşəbbüsləri, digər qardaş dövlətlərin iştirakı və dəstəyi ilə reallığa çevrilməkdədir.

Müasir dövrün ən vacib informasiya alətlərindən birinin sosial media olduğunu vurğulayan Prezidentin köməkçisi deyib: "Sosial media platformalarında ölkələrimizə qarşı mənfi tendensiyaların, informasiya təxribatlarının, yalan məlumatların yayılmasının qarşısının alınması üçün bu sahədə əməkdaşlığımızın və fəaliyyətimizin əlaqələndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu mənada, sosial mediada birgə fəaliyyətimizin əlaqələndirilməsi üzrə işlək və çevik mexanizmlərin yaradılması faydalı olar. Bu məqsədlə, zəngin tarixi və mədəni irsimizin, görkəmli şəxsiyyətlərimizin dünyada tanıdılması istiqamətində birgə fəaliyyət, bədii və sənədli filmlərin çəkilişi, şair və yazıçılarımızın əsərlərindən ibarət ortaq nəşrlərin hazırlanması, beynəlxalq media tədbirlərində birgə iştirak mühüm addımlardandır". Liderlər tərəfindən qarşıya qoyulan məqsədlərin sadəcə, əməkdaşlığa deyil, xalqlarımızın mənəvi yaxınlaşmasına da töhfə verdiyini diqqətə çatdıran Hikmət Hacıyev ölkələrimizə qarşı aparılan dezinformasiya və saxta xəbər təbliğatlarının bu gün də davam etdiyini deyib.

Hikmət Hacıyev müharibə dövründə erməni lobbisinin informasiya sahəsində ölkəmizə qarşı təxribatlarının qarşısının alınmasında, saxta xəbərlərlə mübarizədə və Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında göstərdiyi dəstəyə görə bütün Türkiyə mediasına bir daha minnətdarlığını bildirib.

Toplantıya videomüraciət edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, media və kommunikasiya məsələləri, sosial media və dezinformasiya ilə mübarizə siyasi və sosial həyatımızın təmin olunması baxımından həyati əhəmiyyət kəsb edir. İkinci Qarabağ müharibəsi zamanı şahidi olduğumuz yalan və böhtanlar bu məsələnin vacibliyini bir daha xatırlatdı və güc birləşməsinin bizim üçün nə qədər zəruri olduğunu göstərdi. Müharibə təkcə meydanda aparılmayıb, yazılı və vizual mediadan sosial mediaya qədər bir çox sahələrdə 44 gün ərzində gərgin mübarizə gedib. Rəqəmsal faşizmin milyardlarla insanın dəqiq və qərəzsiz xəbər almaq hüququnu əngəlləyən təhlükəyə çevrildiyini qeyd edən Türkiyə Prezidenti xüsusən də nəzarət, yoxlama, qayda və etik dəyərlərin olmadığı sosial media kanallarının bütün cəmiyyətlər üçün ciddi risklər yaratdığını deyib. Toplantıda bu tədbirin mövcud əməkdaşlıqları daha da inkişaf etdirəcəyini deyən Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fahrettin Altun bildirib ki, TDT yarandığı gündən ötən 13 il ərzində təşkilat təkmilləşərək beynəlxalq quruma çevrilib. Liderlər bu təşkilatın inkişafı və birliyi istiqamətində mühüm addımlar atıblar. Ölkələrimizin birliyinin daha da möhkəmləndirilməsinə töhfəmizi verməliyik. Medianın inkişafı isə bu sahəni təmsil edənlərin əlindədir.

İnformasiya və kommunikasiya texnologiyalarının inkişafı, sərhəd tanımayan yeni media və sosial şəbəkələrin həyatımızda oynadığı rol öz mədəniyyətini, identikliyini qorumaq istəyən bütün xalqları olduqca ciddi çağırışlar qarşısında qoyub. Belə bir zaman kəsiyində yeganə doğru seçim bir-birini assimilyasiyaya uğratmayacaq, ortaq dil və mədəniyyət üzərindən yola çıxacaq, rəqabətədavamlı media və sosial media platformalarının yaradılması və inkişaf etdirilməsidir. Türk xalqları qlobal assimilyasiya prosesinin, təxribat xarakterli, dağıdıcı informasiya axınının qarşısında yalnız birlikdə dayana, öz identikliklərini qoruya bilərlər. Bu gün dünyada müstəqil hüququn subyekti olan türk dövlətləri türk xalqlarının əldə etdikləri ən böyük tarixi nailiyyətdir. Azərbaycanın öz ərazilərini Ermənistanın işğalçı qüvvələrindən təmizləməsi, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuzun əldə etdiyi tarixi Zəfər, bu qələbənin əldə olunmasında qardaş Türkiyənin ölkəmizə verdiyi mənəvi və siyasi dəstək, Türk Şurasının nümayiş etdirdiyi prinsipial mövqe türk xalqlarının və dövlətlərinin birliyi, həmrəyliyi üçün yeni bir pəncərə açıb, bu birliyin perspektivinə olan inamı daha da artırıb. Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasında qardaş türk dövlətlərinin iştirakı isə birliyimizə yeni rəng qatacaq, qurub-yaratmaq potensialımızı bütün dünyaya nümayiş etdirəcək.

**Mustafa KAMAL,**
**"Respublika".**